**AR NRYTN "AzInTelecom" MMC-nin Sertifikatlaşdırma departamenti**

# KEYFİYYƏT SAHƏSİNDƏ SİYASƏTƏ DAİR BƏYANNAMƏ

AR NRYTN "AzInTelecom" MMC-nin rəhbərliyi Sertifikatlaşdırma departamentinin AZS ISO/IEC 17065-2014 "Uyğunluğun qiymətləndirilməsi. Məhsulların, proseslərin və xidmətlərin sertifikatlaşdırılması üzrə orqanlara olan tələblər" standartının tələblərinə uyğun fəaliyyət göstərməyini öhdəsinə götürür.

**Sertifikatlaşdırma departamentinin fəaliyyətinin yüksək keyfiyyətinin təmin edilməsi üçün qarşısında aşağıdakı məqsədləri qoyur:**

- sertifikatlaşdırma nəticələrinin qərəzsizliyinin, doğruluğunun, dəqiqliyinin və izlənilməsinin təmin edilməsini;
- sertifikatlaşdırma xidmətinin keyfiyyətinin daima artırılmasını;
- sertifikatlaşdırmaya cəlb edilən telekommunikasiya vasitələri və qurğularının sayının çoxaldılmasını və akkreditasiya sahəsinin genişləndirilməsini.

**Qeyd olunmuş məqsədlərə nail olmaq üçün Sertifikatlaşdırma departamenti qarşısında aşağıdakı vəzifələri qoyur:**

- Keyfiyyəti İdarəetmə Sisteminin işlənilməsini, onun tətbiqini və təkmilləşdirilməsini;
- uyğunluğun qiymətləndirilməsinin normativ sənədlərin və mövcud qanunvericilikdə nəzərdə tutulan sertifikatlaşdırma sxemlərinin tələblərinə uyğun olaraq həyata keçirilməsini;
- işlərə səriştəli işçi heyətinin cəlb olunmasını, heyətin səriştəliyinin daima artırılmasını;
- departamentin müvafiq şərait tələblərinə cavab verən otaq və ofis ləvazimatları ilə təmin edilməsini.

**Keyfiyyət sahəsində siyasətinin həyata keçirilməsi üzrə məsuliyyətini dərk edərək, AR NRYTN "AzInTelecom" MMC-nin rəhbərliyi aşağıdakıları öhdəsinə götürür:**

- qeyd olunmuş vəzifələri icra edərək məqsədlərinə nail olmaq üçün müvafiq şəraitin təmin edilməsini;
- departamentin akkreditasiyaya nail olmasını və akkreditasiyanın vaxtlı-vaxtında yenilənməsini;
- departament heyətinin və rəhbərliyinin cavabdehliyinin müəyyən edilməsini;
- departament heyətinin əmək haqqılarının keçirdikləri sertifikatlaşdırma nəticələrindən asılı olmamasının təmin edilməsini;
- qərəzsizliyin təmin edilməsini və maraqların münaqişələrinin qarşısının alınmasını;
- əldə olunmuş məlumatların məxfiliyinin təmin edilməsini.

**AR NRYTN "AzInTelecom" MMC-nin direktor müavini, direktor v.m.i.e.** — İmza — **Tağı Tağı-Zadə**

M.Y.

**Tarix: 29 mart 2021-ci il**

**AIT-SD-PL(Keyfiyyət sahəsində siyasətə dair Bəyannamə)-2.0**

Vizalar:

| Ad və soyad | Vəzifə | İmza | Tarix (DD/MM/YYYY) |
|---|---|---|---|
| Orxan Mikayılov | Sertifikatlaşdırma departamentinin rəhbəri | | 29.03.2021 |